# Hərbi qulluqçuların dəfn mərasimində hərbi ehtiramın göstərilməsi daha da yüksəldiləcək

Dekabrın 7-də V çağırış Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin ilk iclası keçirildi. İclasda əvvəlcə SOCAR-ın "Günəşli" yatağının 10 saylı stasionar dərin dəniz özülündə baş vermiş qəza nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov gündəlikdə duran məsələlər barədə məlumat verdi.

Əvvəlcə "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə baxıldı. Ziyafət Əsgərov qeyd etdi ki, dəyişikliyə əsasən nizamnamənin 18-ci - "Dəfn mərasimlərinin təşkili və keçirilməsi zamanı hərbi ehtiramın göstərilməsi" fəsli yeni redaksiyada verilir. Bu dəyişiklik hərbi xidmət vəzifələrinin icrası ilə əlaqədar vəfat etmiş hərbi qulluqçuların dəfn mərasimlərinin təşkili və keçirilməsi zamanı daha yüksək səviyyədə hərbi ehtiramın göstərilməsi məqsədini daşıyır. Eləcə də nizamnaməyə dəfn mərasimlərinin təşkili və qaydaları adlı 16 saylı əlavə daxil edilir. Bu qaydalar nizamnamənin 333-cü maddəsində göstərilən şəxslərin dəfn mərasimlərinin təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

Sonra "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Nizamnaməsi"ndə, "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 337-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də, "Sərhəd qoşunları", "Azərbaycan Respublikasının dövlət sərhədi" haqqında qanunlarda dəyişikliklər barədə məlumat verildi. Qeyd olundu ki, dəyişikliklər "Dəniz limanları haqqında" qanunun tətbiqi ilə əlaqədar edilir və redaktə xarakterlidir.

"Dövlət qulluğu haqqında" qanuna edilən dəyişikliklə bağlı "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanuna da dəyişikliklər olunacaq. Dəyişikliyə görə, attestasiya olunan fövqəladə hallar orqanları əməkdaşlarına onların xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onların siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

Müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***